# Vətənə sədaqət ruhunda

## Təhsil müəssisələrində Müstəqilliyin Bərpası Günü qeyd olunub



**Paytaxtın ümumi təhsil müəssisələrində 18 Oktyabr-Müstəqilliyin Bərpası Günü ilə əlaqədar tədbirlər keçirilib.**

Təhsil müəssisələrində müstəqilliyin bərpasının 32-ci ildönümünə həsr olunan konfranslar, mühazirə və “dəyirmi masa”lar, vətənpərvərlik mövzusunda bədii qiraət gecələri təşkil edilib. Eləcə də məktəblərdə bayram münasibətilə fotostendlər, bülletenlər hazırlanıb, məktəblilər arasında rəsm, bədii qiraət və inşa yazı müsabiqələri, intellektual oyunlar, şagirdlərin əl işlərindən ibarət sərgilər təşkil olunub.

Tədbirlərdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, rayon icra hakimiyyətlərinin, müxtəlif idarə və təşkilatların nümayəndələri, təhsil müəssisələrinin müəllim-şagird kollektivləri iştirak ediblər.

Tədbirlərdə 32 il əvvəl – 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Soveti tərəfindən dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi, həmin tarixi dövr barədə şagirdlərə ətraflı məlumat verilib.

Azərbaycan xalqı bu bayramı tarixi qələbəmiz sayəsində ərazi bütövlüyünü tam bərpa etmiş xalq kimi qeyd edir. Bu baxımdan, dövlətçilik tariximizdə müstəsna əhəmiyyətə malik, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin mahiyyətinin daha dəqiq ifadə olunması və şagirdlərə bu barədə məlumatların daha ətraflı çatdırılması böyük önəm kəsb edir.

Azərbaycanın müstəqilliyinin bərpasının 32-ci ildönümünə həsr olunmuş tədbirlərdə şagirdlər söylədikləri şeirlər, ifa etdikləri mahnılarla Vətənə olan sevgilərini nümayiş etdiriblər.

Tədbirlərdə müstəqillik tariximizdən bəhs edən videoçarx və sənədli filmlər də nümayiş etdirilib.

# Gələcəyin texnologiya istedadları yetişir



“Deneyap” laboratoriyasına 80 paytaxt məktəblisi cəlb olunub

Məktəblilərə XXI əsr bacarıqlarını əldə etməyə imkan verən “Deneyap” texnologiya laboratoriyasında şagirdlər dizayn və istehsal, robototexnika və kodlaşdırma, aviasiya və kosmik texnologiyalar, nanotexnologiya və materialşünaslıq, süni intellekt, kibertəhlükəsizlik, mobil tətbiq və digər mövzular üzrə ikillik texnologiya təhsili alırlar.

Qeyd edək ki, layihəəsaslı “Deneyap” texnologiya laboratoriyası gələcək dövrün ehtiyaclarını nəzərə alan, gündəlik həyat problemlərinin həllinə yönələn kompleks və fərqli təhsil modelidir. Laboratoriyada keçirilən təlim proqramları gələcəyin texnologiya istedadlarının yetişməsini dəstəkləyir və ölkəmizin bu istiqamətdə inkişafını hədəfləyir.

Onu da qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Türkiyə Texnologiya Komandası Fondunun əməkdaşlığı çərçivəsində yaradılan “Bilim Bakı” Mərkəzinin “Deneyap” texnologiya laboratoriyasının təlim proqramlarında 4, 5, 6 və 7-ci sinif şagirdləri iştirak edirlər.

# Qələbələrimizin təməli təhsilimizlə qoyulur

## “Azərbaycan məktəbi” jurnalının növbəti sayında...




**Elm və Təhsil Nazirliyinin “Azərbaycan məktəbi” jurnalının “Heydər Əliyev İli”ndə işıq üzü görən üçüncü sayı Ulu Öndərin təhsil haqqında söylədiyi “Təhsil millətin gələcəyidir” fikri ilə yola çıxıb. Tariximizin qızıl səhifəsini yazan, təhsilimizin uğurlu bünövrəsi əsasında yetişən və bizə şanlı Zəfəri qazandıran Azərbaycan Silahlı Qüvvələrinin fəaliyyəti, iqtisadiyyatımızın yüksəlişi müəllimlərimizin peşəkarlığının və özünüinkişafa doğru səylərinin nəticəsidir. Jurnalın üz qabığında əks olunmuş rəmzlər isə bizim yol xəritəmiz və inamımızın ifadəsidir.**

Jurnalın baş redaktoru Arzu Soltan oxuculara müraciətində bu fikri belə vurğulayıb: “Tarixin indiki şərəfli və məsuliyyətli mərhələsində elmin rolu, təhsilin gücü bir daha özünü göstərməkdədir. Jurnalımızın hədəfi bu danılmaz qüvvənin hərəkətvericilərinə, elm və təhsil proseslərinin iştirakçılarına faydalı olmaqdır”.

Jurnalın bu sayında Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Soltan Hüseynoğlunun “Ədəbiyyat dərslərində interpretasiya”, Azərbaycan Dövlət Pedaqoji Universitetinin doktorantı Anar Xələfovun “İnklüziv siniflərdə tətbiq olunan pedaqoji metodların təhlili”, Xəzər Universitetinin pedaqogika tarixi və nəzəriyyəsi ixtisası üzrə magistrantı Səlimə Hüseynovanın “Şagirdlərin riyaziyyat anlayışı ilə bağlı düşüncələrinin metafor vasitəsilə tədqiqi”, Xəzər Universitetinin təhsilin təşkili və planlanması üzrə doktorantı Oluvaseyi Olubunmi Sodiya və Xəzər Univeristeti Dünya Məktəbi kompleksinin koordinator/məsləhətçisi (layihələr üzrə) Afət Nəbiyevanın “Layihəəsaslı öyrənmə: şagirdlərin xidmət və öyrənmə layihəsinin məktəb icmasının sağlamlıq və rifah haqqında məlumatlılıq səviyyəsinə təsirinin araşdırılması”, Qazaxıstan Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü, pedaqogika üzrə elmlər doktoru, sosiologiya üzrə elmlər doktoru, professor Aleksandr Teslenkonun “Müasir məktəbdə gənclərlə iş: Qazaxıstan təcrübəsi”, Azərbaycan Respublikası Təhsil İnstitutunun Məktəbəqədər təhsilin inkişafı şöbəsinin mütəxəssisi Aysel Quliyevanın “Məktəbəqədər təhsil pilləsində Montessori, Valdorf və Reggio Emilia öyrənmə nəzəriyyələrinin əhəmiyyəti”, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı Günel Babayevanın “Yazılı imtahanların qiymətləndirmənin etibarlılıq prinsipinə uyğunluğu”, Xəzər Universiteti Dünya Məktəbi kompleksinin direktoru Nazpəri Bayramovanın “Ümumtəhsil məktəblərində innovasiyaların tətbiqinin əhəmiyyəti”, Xəzər Universitetində pedaqogika nəzəriyyəsi və tarixi üzrə magistrant Məsməxanım İskəndərlinin “Ümumi təhsildə bullinq və kiberbullinq, onlara qarşı mübarizə üsulları”, Xəzər Universitetində pedaqogika nəzəriyyəsi və tarixi üzrə magistrant Nərgiz Məmmədovanın “Məktəb mühitində sosial ədalətin önəmi” başlıqlı məqalələri təhsil prosesinə təsir göstərən amillər, keyfiyyətli təhsilə nail olunması yolları, beynəlxalq təcrübə və təhsilin sosial məqamları, inklüziv təhsildə istifadə olunan metodlara və s. mövzulara həsr olunub.

Məqalələri jurnalın çap versiyasından, eləcə də internet səhifəsindən oxuya bilərsiniz.

# ADNSU ilə Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi əməkdaşlığa başlayır

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) ilə Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi arasında Əməkdaşlıq memorandumu imzalanıb.

İmzalanma mərasimində ADNSU-nun rektoru vəzifəsini icra edən dosent Vazeh Əsgərov, Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin direktoru Cavid Abdullayev və onu müşayiət edən nümayəndə heyəti, universitetin prorektorları və professor-müəllim heyəti iştirak ediblər.

Dosent Vazeh Əsgərov Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ilə əməkdaşlığın təkcə universitet üçün deyil, həm də ölkə üçün əhəmiyyətini vurğulayıb. O, işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji mənbələrinin yaradılması istiqamətində yüksəkixtisaslı kadrların hazırlanmasının universitetin prioritet vəzifəsi olduğunu deyib.

Agentliyin direktoru Cavid Abdullayev ölkədə bərpa olunan və yaşıl enerjidən istifadə ilə bağlı görülən işlər, layihələr barədə məlumat verib. İşğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji mənbələrindən istifadə ilə yanaşı, tikinti və abadlıq işlərinin həyata keçirildiyini vurğulayan C.Abdullayev ADNSU ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, əməkdaşlığın elmi tədqiqat sahələrinin inkişafına, o cümlədən elmi-nəzəri və praktiki tədqiqatların aparılmasına, tədris-metodiki vəsaitlərin hazırlanmasına, tədris prosesinin təkmilləşdirilməsinə töhfə verəcəyini bildirib.

# Amerikalı mütəxəssis Azərbaycanda modernist ictimai memarlıq sahəsini tədqiq edir



**Amerika Birləşmiş Ştatlarından olan mütəxəssis Lincoln Nemetz-Karlson “Fulbright” Proqramı çərçivəsində Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) elmi-tədqiqat aparır.**

Memarlıq fakültəsinin nəzdində memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasına təhkim olunan tədqiqatçı 2023/2024-cü tədris ilində universitetin qonağı olacaq.

Lincoln Nemetz-Karlson hazırda “1970/1980-ci illərdə Azərbaycanda layihələndirilmiş və tikilmiş modernist ictimai memarlıq” mövzusunda tədqiqat işinə başlayıb. O, elmi-tədqiqat işində universitetin zəngin kitabxana fondundan və elektron resurslarından yararlanır. Bununla yanaşı, mütəxəssis Azərbaycan dilini də öyrənir.

Tədqiqatçı ölkəmizə gəldiyi ilk gündən Azərbaycanın tarixi abidələrini, məkanlarını gəzir, kafedranın əməkdaşları ilə birgə “Atəşgah məbədi”, Qala qoruğu, Qobustan dövlət qoruğu, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində yerləşən tarixi tikililərlə tanış olur.

Xatırladaq ki, bu tədris ilində “Fulbright” Proqramı çərçivəsində AzMİU-ya ABŞ-dan 2 mütəxəssis gəlib. Onlar aktiv şəkildə kafedranın müəllimləri və fakültənin tələbələri ilə ünsiyyətdə olur, memarlıq sahəsində ABŞ ali təhsil təcrübəsini, əldə etdikləri elmi yenilikləri bölüşürlər.

# MDU aliminin rəhbərliyi ilə “Nur şəhərinin dil yaddaşı” adlı dialektoloji lüğət hazırlanıb

**Mingəçevir şəhərinin 75 illik yubileyi münasibətilə Mingəçevir Dövlət Universitetinin (MDU) humanitar fənlər kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Namaz Manafovun rəhbərliyi ilə “Nur şəhərinin dil yaddaşı” adlı (“Elm və təhsil”, 2023-cü il) dialektoloji lüğət tərtib edilib.**

Lüğətdəki sözlərin toplanmasında MDU-nun müəllimləri ilə yanaşı “Azərbaycan dili və ədəbiyyat müəllimliyi” ixtisası üzrə təhsil alan tələbələr də yaxından iştirak ediblər. Onlar Mingəçevirin yaşlı sakinləri ilə görüşüb, dialektoloji materiallardan, çap olunmuş lüğətlərdən, monoqrafiyalardan istifadə ediblər. Tələbələr ədəbi dilimizdə işlənməyən, lakin Mingəçevir şəhər şivəsində mühafizə olunan mindən artıq söz bazası formalaşdırıblar.

Lüğətin sözlüyünə daxil olan sözlər bir daha sübut edir ki, Mingəçevir ərazisi qədim və əbədi türk yaşayış məskənidir. “Ön söz”də qeyd olunduğu kimi, yerli əhali ilə ətraf ərazilərdən vaxtilə köçüb gəlmiş və Mingəçevirin salınmasında bilavasitə iştirak etmiş insanların iş birliyi zaman keçdikcə həm də “dil birliyinə” çevrilmiş, daha doğrusu, vahid şəhər şivəsini formalaşdırmışdır.

Xalqımızın və dilimizin tarixi ilə bağlı bir çox əlamətlər Mingəçevir şəhər şivəsində qorunub saxlanılır. Bu şivədə işlənən qədim türk mənşəli sözlərin doğmalığı insanı heyrətdə qoyur: “çalkeçir” (məhəccər), “de:cilik” (xəbərçilik), “dö:ürə” (məcməyti),“qıymaz” (xəsis), “micir” (zəif) və s.

Mingəçevir şəhər şivəsi kənd təsərrüfatına, maldarlığa, balıqçılığa və gəmiçiliyə, meşəçilik, bağçılıq təsərrüfatına, ev və çöl heyvanlarına, ev əşyalarına, adət- ənənələrə dair zəngin terminoloji leksikası, öz orijinallığı ilə fərqlənir.

Lüğətə AMEA Nəsimi adına Dilçilik İnstitutunun Böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Qüdsiyyə Qəmbərova və MDU-nun dosenti, filologiya elmləri doktoru Flora Namazova rəy veriblər. Lüğətdən MDU-nun “Azərbaycan dili və ədəbiyyat müəllimliyi” ixtisasında təhsil alan tələbələr başda olmaqla, magistrantlar, müəllimlər, tədqiqatçılar və eləcə də geniş oxucu kütləsi faydalana bilər. Lüğət dərs və tədqiqat vəsaiti kimi istifadə edilə bilər.

Qeyd edək ki,“Nur şəhərinin dil yaddaşı” (Mingəçevir şəhər şivəsinin qısa lüğəti, təkmilləşdirilmiş ikinci nəşr) AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunub.